# OVÇULUQ MİFLƏRİ

## I mətn

Mən özüm ovçu olmuşam, özü də quşu gözünnən atan ovçulardan olmuşam. Turşsuyun üsdünə yaz vaxdı əliklər su işməyə gəlillər. O suda duzlulux olduğu üçün onun üsdünə gəlillər. Getmişik ora. Əlik gəlif dayanıf, atmışam. Atmışam, əlik tərpənmiyif. Üç güllə atmışam, əlik tərpənmiyif. Yanımdakı yoldaşım dedi ki, bu nətər ola bilər, əliyin o tərəfinnən güllənin çıxdığın gördüm, amma bu heyvan yerindən tərpənmədi. Getdik ki, əlik elə ayax üsdündə keçinif. Onnan sora gəldim dayıma dedim ki, əliyə güllə atmışam qabağımnan qaşmıyıf. Dedi ki, innən belə əliyə sən güllə atma. Ov sənin qabağında dayanıf.

Mən onun sözünə qulax asmadım sora bir dənə də əlik vurdum. Əlik çığırdı. Mən gedənə qədər əlik çığırıf. Gedif boğazınnan tutmuşam, səsi çıxmıyıf, onnan sora başın kəsmişəm. Qayıdıf gəlmişəm evə ki, bizdən çoxlu arvad-uşax gedir. Evi də təzə tikmişik, hələ üsdün vurmamışıx. Bu uşaxlar da balaca idi. Birinə də rezin dooşan almışam. Çıxıflar evin üsdündə oynayanda uşax evin üsdünnən düşüf daş komasının içinə. Dooşan altında qalıf onu atıf daşın bu üzünə. Onnan sora ova getməyə tooba elədim.

*Söylədi: Şahsuvarov Şahsuvar Zülfü oğlu, Laçın rayonu, Budaqdərə kəndi, 1940-cı il, orta-ixtisas təhsilli həkim. Ağcabədi rayonunun Taxtakörpü qəsəbəsində məskunlaşıb.*

## II mətn

Əhmətdidə Kor Temir vardı. Bir gün gəlif çıxıf bizə. Gəzirdi kəntdəri. Atamnan söhbət eliyiflər gejə səhərə qədər. Mən də getmişəm dərsə. Dərsdən gələnnən sora tüfəngi götürdüm. Dedi, hara gedirsən? Dedim, gedirəm meşəyə. Dedi, tüfəngini gətir bura. Gətdim tüfəngi verdim buna. Dedi ki, vura bilirsən heç? Dedim ki, Temir əmi, qabaxlar vururdum, amma indi vura bilmirəm. Nə qədər yaxınnaşıram, marağ salıram, vura bilmirəm. Tüfəngə duva oxudu, sildi təmizdədi. Dedi ki, uğuru pis adam çıxıf qabağına, tüfəngin çiləyə düşüf. Dedi, itinizdən, üzdən irağ, qancıx olanı var? Dedim, var. Dedi, apar tüfəngi uzat yerə. Çörək al əlinə, qancığı çörəkliyə-çörəkliyə gətir tüfəngin üsdünnən keçirt. Getdim bunu belə elədim. Tüfəngi götürdüm getdim. Yolnan gedirəm, hələ meşəyə çatmamışam. Yolnan getdiyim yerdə bir dənə əlik hoppana-hoppana gəldi bulağın usdünə. Atdım, elə orda da qaldı.

*Söylədi: Şahsuvarov Şahsuvar Zülfü oğlu, Laçın rayonu, Budaqdərə kəndi, 1940-cı il, orta-ixtisas təhsilli həkim. Ağcabədi rayonunun Taxtakörpü qəsəbəsində məskunlaşıb.*

## III mətn

Aşıq Abbasın bir bajısı oğlu oluf, Qəmbər oğlu Mehdi deyərdilər. Çox sərras ovçu oluf. Canavar gedif danaya söykənəndə atıf öldürürmüş. Hətta bir dəfə xəsdə imiş. Toran qarışan vaxdı mal gələndə sanıyıf görür alagöz inək yoxdu. Çörəyə oturanda deyif malların hamısı burda? Arvadı deyif hə. Deyir:

– A Pakizə, çaşmısan? Alagöz inək gəlmiyif ey.

Özü durur, yıxıla-yıxıla gedir ki, iki canavar daldan inəyi eşir. Bir gülləyə canavarları vurur, inəyi götürür gəlir.

Əlli-atmış yaşınnan sora o yuxu görüfdü, onnan sora güllə atmıyıf. Yuxuda görür ki, əlik üzünə tüpürdü, onnan sora əlinə tüfəng almıyıf. Özü də evdə tir varmış, vurduğu

əliklərin sayını bilmək üçün hər gələndə ora bir kərt vururmuş. Saysaydın bəlkə beş yüz, altı yüz əlik vurmuşdu.

*Söylədi: Abbasov Asif Şura oğlu, Laçın rayonu, Arduş kəndi, 1962-ci il, orta təhsilli, ticarətlə məşğuldur.*

### IV mətn

Əliquluuşağı kəndinin ərazisinin bir hissəsi meşəlik olmuşdu və nişanəsi qalırdı. Bu ərazi Ermənistanla sərhətdə Beşbarmaq adlanan sahə ilə Hamar adlanan sahə arasını təşkil edirmiş. Ağsakqalların dediyinə görə, həmin meşədə bütün vəhşi heyvanlar yaşayırmış.

Bir gün Məmməd kişi silahını götürüb adəti üzrə ova gedir və Çömçəlinin dərəsində qarşısına yanı balalı maral çıxır. Məmməd kişi nişan alıb atır, danaça yerə yıxılır, ana maral isə qaçır. Məmməd kişi həm cəld, həm də dəqiq nişan alan imiş. Ovunun dalınca qaçır və Ağ kahaya aşan yerdə nişan alıb maralı da vurur. Maral yerə yıxılmayıb təpəsi üsdə dayanır və bir neçə dəqiqədən sonra yıxılır.

Rəvayətə görə, kimin yüzüncü ovu (böyük heyvan) başı üstə durursa, həmin adam silahını yerə basdırmalıdır. Əgər silahı basdırmasa, həmin ovçu dəli olmalıdı. Məmməd silahını yerə basdırmır və dəli olur. Bundan sonra ona "dəli Məmməd" deyirlər.

*Söylədi: Əlişoğlu Əbülfət. Başı bəlalı kəndim. Sumqayıt: "Zərdabi", 2006 kitabından götürülmüşdür.*

### V mətn

Bizdə Seyid Qurban vardı, yüzüncü ovu o görüb. Bizə deyirdilər ki, yüzüncü ovu vurmuyun. Yüzüncü ova güllə atanda ovçunun gözünə ovun bazu sümüyü görükür. Əgər ona güllə atarsa, onun mütləq ölüsü çıxacaq evdən.

Seyid Qurban çox güjdü güllə atan idi. Sürgəlbərə deyirdilər; beş nəfər gedib bərənin ağzında dururdu, üç nəfər də bu tərəfdən səs eliyirdi, heyvanları bərəyə doğru qovurdu. Seyid Qurban bərədə durmuşmuş. Görür ki, əlik gəlir. Götürür ki, güllə atsın, tüfəngi yendirir. Yoldaşı deyir ki, seyid, niyə atmadın? Deyir, mənim gözümə bazu sümüyü görükdü, daha mən güllə atmıyacam. Qayıdır gəlir. Onnan sora uzun müddət güllə atmayıb. Bir gün bizim kəndin qabağında – güney qanadında canavar toxuyub heyvana[1]. Seyid Qurban beşaçılanı götürüb atır, canavar çıxıb gedir. Elə bilir ki, bunun atdığı güllə canavara dəymiyib. Özünə sığışdırmır, tüfəngi çevirib öz çənəsinnən atır. Həmin canavar da bir az irəli getmiş yıxılır. Gedib görüllər ki, güllə canavarın sinəsinnən girib kürəyindən çıxıb.

*Söylədi: Cümşüdov Cümşüd Salman oğlu. Doğulduğu yer: Zəngilan rayonu, Sobu kəndi. Təvəllüdü: 1956. Təhsili: orta.*

### VI mətn

Anamın babası Allahqulu məşhur ovçuymuş. Qoca arvadlardan bir nəfər, mən bilən Tamam arvatdı, yatır, yuxuda görür ki, bir qızdı, bir arvad. Maral öküzünün boynuna kəndir bağlıyıflar, kəndirin bir ucundan tutuf gəzdirillər. Bulara deyif ki, niyə belə eliyirsiz? Bu ov heyvanıdı, buraxın, getsin otdasın. Deyiflər ki, Allahqulunun balaları qırılsın, qoymur axı. Maralların hamısını qırıf, bunu da qoruyurux ki, bəlkə vurmuya. Tamam arvad səhər duruf öz yuxusunu danışır. Həmişə də deyirdi ki, maralları otaran arvadın qarğışı keçif, ona görə Allahqulunun balaları hamısı laldı.

---

[1] Canavar heyvanın içinə girib.

*Söylədi: Bəhramov Fərzalı Ata oğlu. Doğulduğu yer: Zəngilan rayonu, Sobu kəndi. Təvəllüdü: 1936. Təhsili: orta.*

## VII mətn

Bədnəzər adam qabağımıza çıxsa, həmin gün ova getməzdik, qayıdardıx dala. Xoşniyyət adam qabağa çıxsa, bilirdik ki, bu gün ovumuz olacax. Kənddə kim ova gedirdisə, vurduğu ovdan Seyid Xoşu nənəyə də pay verirdi. Elə adam yoxuydu ki, vurduğu ovdan ona pay verməsin. Qabaqcadan danışırdıq ki, sabah filan yerdə görüşək, ova gedək. Danışdığımız yerdə yığışıb ova gedirdik. Təzə ova başlıyannarı iki yaxşı ovçunun arasında saxlıyırdıx. İkimiz qıraxda durardıx, onu da gözdüyərdik. Yorulanda onu qoyurdux bərəyə. Özü də bir az onu qabaxda saxlıyırdıx ki, bunnan ov keçəndə atdığı güllə bizi tutmasın.

Yay mövsümündə gedərdik bulağ üstünə. Şaxdan dəyə düzəldərdik, pusquda durardıx. Əliklər səhər, bir də axşam gün batabatda bulağa suya gəlirdi. Onda da təzə adamı həmişə qabağa buraxardıx. Bizə deyirdilər ki, mart, aprel, may ayları dişi heyvana güllə atmax qəti qadağandır. Çalışın dişi heyvana payızda güllə atın. Payızda subay olurdu. Çalışırdıx ki, axır çərçənbə qabağı əliyə gedək, evdə əlik əti olsun. Təzə ova başdıyannarı, yaxşı tüfəng ata bilmiyənnəri sürgələ qoşardılar, yorulanda qoyardıx bərəyə. Başa salardıx ki, harda güllə ata bilər, harda ata bilməz. Bəzən dörd-beş bərə ovlanırdı, onda vurduğumuz ov ətini sürgəlçinin yanına qoyurdux. Deyirdik, o biri bərəni də biz sürək gələk, burdan da çıxax gedək.

Ov belədir ki, kim çıxdı üstünə, qisməti var. Ovun ürəyi onu vuran adama çatırdı. Onu götürüb qoyardıx qırağa, qalanını bərabər bölərdik. Məsələn, beş nəfəriksə, qabırğanı beş yerə bölürük, budu beş yerə bölürük, qolları beş yerə bölürük. Bir nəfər üzünü çöndərir o yana, hərə bir əşyasını ona verir. O adam da üzü o tərəfə olduğundan həmin əşyaların kimə məxsus olduğunu bilmir. Həmin əşyaları payın üstünə düzür, hər kəs öz əşyasının qoyulduğu payı götürür. Yerdə qalırdı baş-ayağı, dərisi. Dərisin çox vaxt götürmürdük, başqası gəlib görə bilərdi, gedib xəbər verə bilərdi. O devrdə də ov etmək qadağan idi. Baş-ayağı da vuran götürürdü, kimə istəsə verirdi. Ovçu özünə nə qədər pay götürürdüsə, sürgəlçiyə, yolnan gedənə də həmin səviyyədə pay verirdi. İçalatın adətən orda bişirib yeyərdik. Ovu da heç vaxt tərəziyə qoymazdılar, günah sayılırdı.

*Söylədi: Cümşüdov Cümşüd Salman oğlu. Doğulduğu yer: Zəngilan rayonu, Sobu kəndi. Təvəllüdü: 1956. Təhsili: orta.*

## VIII mətn

Sürgəlbərə eliyirdik, avı vururdux. Yoldaşlar arasında bərabər bölürdük. Beş yerə bölürdük, sora deyirdik, Rəfi, küs. Deyirdi, mən niyə küsürəm, payımnan küsüm? Deyirdik, yox, küs. Üzünü çevirirdi o tərəfə. Hərə bir əşyasın verirdi. O da üzünü çevirirdi, əşyaları payların üstünə qoyurdu. Hər kəs öz əşyası qoyulan payı götürürdü, əşya qoyulmayan da onun özünə çatırdı. Ovun ürəyinnən başı vuran adama çatırdı, qalan əti bərabər bölünürdü. Beş nəfər ova getmişsə, hər yüz metrdən bir biri dururdu, biri də gedirdi müəyyən məsafədən səslənə-səslənə gəlirdi. Av səs olmayan tərəfə qaçırdı, bərədə duran adam da onu vururdu. Bizdə oktyabrdan aprelin axırına qədər ova gedilərdi. Onnan sora bulaq üstünə gedirdik. Bulaq üstünə ya tezdən gedirdik, ya da günortadan sora gedirdik. Av o vaxtı gəlir suya. Orda özümüzə ağacdan dəyə qurub gözdüyürdük, av gələndə vururdux. Bir ov da var qaramarıx gedirdik. Qaramarıx belədi ki, üç nəfər getmişik. Biri yüz metr o tərəfdən gedir, biri ortadan

gedir, biri də yüz metr onnan aşağıdan gedir. Dinməz gedirsən. Onnan çıxan ovu sən atırsan, sənnən çıxan ovu o atır. Buna qaramarıx deyirdilər. Bala verən vaxdı ancaq təkəyə güllə atardıx. Donuz, dovşan əti yeyilməzdi. Ovluyardıx, özümüz yeməzdik, ermənilərə deyərdik, gəlib aparardılar. Bizim kənddə bir kişi olub. Yüz dənə heyvan vurub. Yüzüncüyə gələndə heyvan durub dal ayaxları üsdə qalxıbdı. Ona güllə atmıyıbdı.

Qırxlı kadın tüfəngin üstünə gəlirsə, tüfəng qırxa düşürdü. Onun qırxlığın götürürdülər. Çöldən tüfəngli gələndə evdə qırxlı uşaq varsa, uşağı çıxarırdılar, tüfəng evə girəndən sonra uşağı gətirirdilər.

*Söylədi: Hacıyev Rəfi Ağaverdi oğlu. Doğulduğu yer: Zəngilan rayonu, Sobu kəndi. Təvəllüdü: 1949. Təhsili: orta. İxtisası: sürücü.*

## IX mətn

Vallah, bizdə afçılar "ombadurma" deyərdilər. Ovçu bir silahnan yüz ov vırsa, onun qavağında maral omba durar. Bizim tərəflərdə bir kişi ov vıranda görüf ki, tüfəngi qaldıranda bir zənən, qız xeylağıdı, silahı salanda olur ov, silahı qaldıranda olur zənən xeylağı. Uç dəfə bı minvalla eliyir, baxır ki, yox, bırda bir sirr var. Kişi gətirir silahın basdırır. Onnan indiyənə qədər deyillər ki, hər kimin qavağında ov omba dursa, silahın basdırmasa, silahın qəzəbinə gələr.

Ovçu ovun atmasın,
Ətin tərəziyə qoyub satmasın,
Ovçu sənin isbin- kisbin partlasın,
Bı dağda bir maral yaman ağladı.

*Söylədi: Quliyev Süleyman Murad oğlu, Qubadlı rayonu, Həkərli kəndi.*

## X mətn

Hansı avı yüzə kimi vırsan, gərəh ta o avı vırmıyasan. Vırmax istiyəndə dönüb olur məlaykə, göyərçin. Bizim kətdə iki adam avın qanununu pozduxlarına görə cəzalanıflar. Balakişinin əliyini Allah ilana döndərif, vırıf. Biriin də gözü kor oluf, əyağı topal. Ona görə ki, avda əlih gözünə maleykə kimi, qız kimi görünür, bı baxmır, vırır, vırdığına görə də elə olur.

*Söylədi: Əliyev Müseyib İslam oğlu, 1916, Zəngilan rayonu, Baharlı kəndi, ibtidai təhsilli.*

## OVÇULUQLA BAĞLI İNANCLAR

- Qurd yağından ayləni dağıtmaq üçün istifadə eliyirdilər. Qurdun daban yağını qurudub suya qatırlar, paltara vururlar və ya çörəyə qatıb yedirdirlər. Əgər qurdu vuran adam onu haramlayarsa (murdarlayarsa), təsirdən düşər.
- Qurdun ürəyini uşağa yedirirmişlər ki, qorxmaz olsun.
- Qurağı, əliyi, göyərçini vurmaq olmaz, deyirlər olarda peyğəmbər qanı var.
- Qırxlı uşağın üstünə gərək tüfənglə getməyəsən. Getsən, tüfəng qırxa düşər. Ya da qırxlı uşaqla tüfəngin üstünə gəlsən tüfəng qırxa düşər.
- Tək ov eləməzlər. Ova gedənlərin arasında möhkəm qayda olur. Başçının sözü o biri ovçular üçün qanundur. Sürəkçi səs eləyib ovu yuvasından çıxarandır. Bərəçi bərədə duranlardı. Xalis ovçular bərəçidir, zəif ovçular sürüyə gedir. Birinci dəfə ova gedən ov başçısının sözünə əməl eləməlidi. Əgər eləməsə, başçı onu qaytarır.
- Tülkü ova gedənin qabağına çıxsa, ov xeyirli olar. Ayağı ağır adam ova gedənin qabağına çıxsa, ova getməzlər. Duz günü ova getməzlər.
- Ova gedəndə gərək heç kimə xəbər eləmiyəsən. Ov yoldaşları şərtləşərdilər, filan mətədə görüşüb ova gedərdilər.

*Söylədi: Cəfərov Əvəz Əliş oğlu. Doğulduğu yer: Laçın rayonu, Güləbird kəndi. Təvəllüdü: 1940. Təhsili: orta.*